**Müşfiq Ş**. Şəhadət yolundan dönməyən qəhrəman // 525-ci qəzet. - 2023. - 15 iyun. - **№ 104**. - S. 15.

**Vətəni necə, hansı duyğularla, nə boyda ürəklə sevmək gərəkdir ki, onun üçün ölümü "gözəldir" adlandıra biləsən?! Nə boyda eşq daşımalısan qəlbində, qanın damarlarında hansı məhəbbət coşğusu ilə axmalıdır ki, ailəni, övladlarını, səni sevənləri, hətta öz canını belə düşünmədən məhz Vətənin, yurdun köməyinə tələsəsən? Onun üçün şəhid olmağa belə sevinərək gedəsən?! Özü də bunu səndən heç kim tələb etməmiş, heç kim istəməmişkən...**

Vətən müharibəmizin qəhrəman şəhidlərindən Kamran Fərəcov məhz bu ürəyin, bu sevginin, bu munis duyğunun sahibi idi. Onun vətən boyda qəlbi elə vətəni üçün döyünürdü ki, sonunda onu nə gözlədiyini bilə-bilə Vətəninin dar günündə cəbhəyə, əsgərlərinin, yoldaşlarının yanına tələsdi. Özündən sonra hələ neçə nəsillərə nümunə kimi danışılacaq qəhrəmanlıq dastanı qoyaraq...

lll

Kamran Qılman oğlu Fərəcov 14 yanvar 1978-ci il yanvarın 14-də Astara rayonunun Səncərədi kəndində anadan olub. 1984-1995-ci illərdə Astaradakı 2 nömrəli məktəbdə təhsil alıb. Savadı, məsuliyyəti, davranışı ilə fərqlənib.

Onun vətən sevgisi, yurd məhəbbəti elə uşaqlığından hər sənətinə maraq yaratmış, onu elə gənc yaşlarından bu sənətə gətirmişdi. Belə ki, o, 1995-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq məktəbinin Taktiki Tank Qoşunları komandiri fakültəsinə daxil olub. 1999-cu ildə leytenant kimi məzun olan Fərəcov Bakıda taqım komandiri vəzifəsində xidmətə başlayıb. Sonra Ağdamda, Gəncədə, Goranboyda cəbhə bölgəsində xidmət edib. Hər zaman məsuliyyətli, tələbkar, cəsarətli və peşəkar zabit kimi fərqlənən, verilən tapşırıqları canla-başla yerinə yetirən komandir nümunəvi xidmətinə görə, 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif edilib.

Səhhəti ilə bağlı xidmətdən ehtiyata buraxılan K.Fərəcov 2020-ci il hadisələrində böyük narahatlıq keçirir, evə-eşiyə sığmırdı. Axı o, illərdən bəridir məhz bu günü, bu müharibəni gözləmişdi. O, sərrast zabit uzaqgörənliyi ilə yaxşı dərk edirdi ki, 30 illik təcavüzə qarşı Ali Baş Komandanın əmri ilə nəhayət baş qaldıran ordumuz ən son ünvana gedib çıxmayınca dinclik tapmayacaq, silah yerə qoymayacaq. Bu orduda onun silah dostları, tələbə yoldaşları, bir zamanlar komandirliyini etdiyi əsgərləri də vardı. İndi onlar cəbhədə döyüşərək Qarabağa gedən yolu çizərkən K.Fərəcov kimi peşəkar zabit evdə otura bilməzdi. Elə də olur. Qəhrəman hərbçimiz ailəsinin etirazlarına da baxmadan 2020-ci il sentyabrın 20-dən könüllü təlimlərə qatılıb, şəxsi heyəti döyüşə hazırlayır.

Həyat yoldaşı Nuranə xanım həmin zamanı belə xatırlayır: "Hərbçi dostları ilə əlaqəsi vardı həmişə. Müharibə gözlənilirdi. Kamran da "Gedəcəyəm" dedi. "İki qızın var, bronxların xəstədi, ikinci qrup əlilliyin var, getməyə bilərsən", - dedim. Çox həyəcanlandı: "Bunu bir də demə. Məni sındırarsan. Hərbçi dostlarım orda, gənclər... İşğalda torpaqlarımız var. Vətən müharibəsidir bu. Özümü bağışlamaram heç vaxt, bu yüklə yaşaya bilmərəm".

Heç nə deyə bilmədim daha. "Şəhid olsam da eybi yox, Şəhidlik də gözəldir" - dedi sonda. Ləyaqətlə, kişi kimi yaşadı. Gözəl yaşadı, gözəl öldü... Vətən üçün - özü istədiyi kimi... Ölümün də gözəlini seçdi..."

Bəli, çıxdığı bu yolun sonu bəlli idi. Amma heç bir qüvvə igid kapitanı geri qaytarmaq gücünə malik olmadı və Kamran Fərəcov Qarabağ uğrunda gedən döyüşlərə qatılır. Uzun illərdən bəri arzuladığı kimi...

Əsgərlər onu özlərinə dayaq bilir, inanır, ondan güc alır, güvənirdilər. Azərbaycan Ordusunun kapitanı Kamran Fərəcov peşəkar zabit kimi 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əsgərləri onu qorxmaz, cəsur komandir kimi tanıyıb. Onun qorxmazlığı heyranediciydi. Özü canavar kimi idi, əsgərlərə də hər an "canavarlarım, bütün torpaqlarımızı azad edəcəyik. Qarabağı azad edəcəyik!", - deyirmiş.

Vətənin cəsur oğlu peşənin, vəzifənin alisini seçdiyi kimi ölümün də gözəlini, ülvisini seçdi. O, oktyabrın 21-də Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı və doğulub-böyüdüyü Astara rayonunda dəfn edildi.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Kamran Fərəcov şəhadətindən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

lll

2004-cü ildə Nuranə xanımla ailə həyatı quran Kamran Fərəcov 10 ilə yaxın bir zamandan sonra ata olmaq xoşbəxtliyinə nail olmuşdu. Allah bu gözəl ailənin səbrini, məhəbbətini bir-birindən gözəl əkiz qızlarla mükafatlandırmışdı. Dəniz və Şəms adını daşıyan bu gözəl balalar belə sevgi dolu, qayğıkeş ataya sahib olduqları üçün ən xoşbəxt uşaq kimi böyüyürdülər. Ta ki müharibə onları atalarından ayırana qədər. İndi onlar təkcə Kamran Fərəcovun qızları deyil, həm də bütün ömürləri boyu adını qürurla, şərəflə daşıyacaqları qəhrəman şəhidin övladlarıdırlar. O şəhid ki, onun üçün bütün dəyərlərdən, bütün sevgilərdən ən alisi Vətəni və övladları idi. Çünki Kamran Fərəcov və onun kimi şəhidlərimiz, qazilərimiz 30 ildir davam edən, yüzlərlə, minlərlə vətən övladının ölümünə səbəb olan işğalın sona yetməsi, gələcək nəsillərimizə qalmaması üçün bu şərəfli yolda yürüdülər. Onlar həm vətəndaşlığın, həm də atalığın ən uca zirvəsini fəth etdilər.